

# Günün tələbi

*Dəvəçi rayonu öz təbiətinin rəngarəngliyi ilə fərqləndiyi kimi, burada insanların məşğuliyyəti də müxtəlifdir. Sahəsinə görə çox da böyük olmayan, yaşıllıqlara qərq olmuş bu rayonda adamlar müxtəlif sahələrdə çalışır.*

## Dəvəçi

**Rayon əhalisinə hərtərəfli mədəni xidmət göstərilməsi mədəni-maarif işçilərinin həmişə diqqət mərkəzində durur. Bu məqsədlə də müəssisələrin 2009-cu il üçün tərtib etdikləri iş planında əlamətdar tarixi günlər və bayramlar, yubileylərlə bağlı müxtəlif tədbirlərin layiqincə həyata keçirilməsi vacib məsələ sayılır.**

20 yanvar faciəsinin ildönümü ilə əlaqədar müəssisələrdə "Bu qan yerdə qalan deyil", "20 yanvar yaddaşlara köçüb", "20 yanvar Azərbaycan xalqının qan yaddaşını oyandırdı", "Şəhidlər xiyabanı 20 yanvarın möhürüdür", "20 yanvar faciəsinin tarixi ibrət dərsləri", "Qərənfil ömrü", "20 yanvar qəhrəmanlıq abidəsi" adlı guşə və sərgilər təşkil edilmiş, söhbət, kitab müzakirəsi, biblioqrafik-icmal, ədəbi-bədii gecələr keçirilmişdir.

26 fevral Xocalı faciəsinin ildönümü ilə əlaqədar müəssisələrdə "Xocalı soyqırımı XX əsrin faciəsidir", "Xocalı - qan yaddaşım" adlı söhbətlər, S.Müslümqızının "Qar üstünə qan yağırdı" adlı kitabının müzakirəsi keçirilmişdir.

8 Mart qadınlar bayramı ilə əlaqədar "Ana müqəddəsdir", "Qadın cəmiyyətin aparıcı qüvvəsidir", "Cəmiyyət və qadın", "Azərbaycan qadını", "Adın müqəddəsdir, ey qadın", "Gözümün nuru ana" adlı söhbətlər aparılmış, ədəbi-bədii gecələr keçirilmişdir.

Milli bayramımız "Novruz"un təmtəraqlı keçirilməsi Dəvəçidə adət halını alıb. "Novruz bahar deməkdir", "Baharın gəlişi ömrümüzə təravət gətirir", "Novruz müjdələri", "Səməni, Bahar, Novruz", "Bahar nə xoş gəlib, ruha can verir", "Yazın müjdəsi qaranquş", "Bənövşə bəndə düşə", "Bahar söhbətləri" və s. adlı səhərcik, ədəbi-bədii gecələrin təmtəraqlı keçirilməsi dəvəçililərin əhvali-ruhiyyəsini xeyli yaxşılaşdırıb. Novruz çərşənbələrinin, müxtəlif ayinlərin, milli oyunların təşkili gənclərin bu milli bayramımıza qarşı əvvəllər olan unutqanlığının üstünə sədd çəkib.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin ümummilli liderimiz Heydər Əliyevin 86, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 91 illiyinin qeyd olunması ilə əlaqədar rayonun mədəni-maarif müəssisələrində tədbirlər planı tərtib edilmişdir. "Ömrün unudulmaz anları", "Tarix yalnız şəxsiyyətləri yaşadır", "Heydər Əliyev və Azərbaycan mədəniyyəti", "Xatirələrdə əbədiləşən müdrik rəhbər", "Heydər Əliyev xalqın atası və siyasi xadim kimi", "Azad, müstəqil Azərbaycan", "Azadlıq hədiyyə verilmir, alınır", "1918-ci ilin 28 Mayı", "Ayağa qalx, Azərbaycan" və s. adlı sərgilər tərtib edilmiş, söhbətlər aparılmış, ədəbi-bədii gecələr keçirilmişdir.

Rayonun mədəni-maarif müəssisələrində 31 Mart Azərbaycanlıların soyqırım günü, 2 fevral Gənclər günü, Beynəlxalq Ana dili günü, 15 iyun Qurtuluş günü ilə əlaqədar da müxtəlif kütləvi, rəngarəng tədbirlər təşkil edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 04.07.2001-ci il tarixli sərəncamına əsasən "Sülh mədəniyyəti və dünya uşaqlarına münasibətdə qeyri-zorakılıq beynəlxalq onilliyi (2001-2010)" Azərbaycan Respublikasında qeyd edilməsi ilə bağlı Respublika Mədəniyyət Nazirliyinin qərarı ilə rayonun klub müəssisələrində məşğul olanların əksəriyyətini uşaq və yeniyetmələr təşkil edir. İstedadlı uşaqların, yeniyetmələrin seçilib bu işlərə cəlb olunmasına rayonda böyük qayğı göstərilir.

Azərbaycan Respublikasının Prezidentinin 17.02.1999-cu il tarixli sərəncamında təsdiq edilmiş "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi" qərarı rayon əhalisi, xüsusən də gənclər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Rayon gəncləri respublikamızda baş verən hər hansı hadisəyə, vəziyyətə öz münasibətlərini vaxtında bildirirlər. Bu da rayon rəhbərliyinin qabaqcıl təcrübəsindən, insanların hörmətini, etibarını layiqincə qazanmasından irəli gəlir.

Azərbaycan Respublikasının Prezidentinin 15.17.2000-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotar maddələrin və prekursorların qanunsuz dövriyəsi və Narkomanlığın yayılması ilə mübarizə üzrə proqramı"nın icrası ilə bağlı rayonda gənclərin hər cürə pis əməllərdən çəkinməsi, qeyri-qanuni işlərdən aralı düşməsi üçün müxtəlif tədbirlər hazırlanıb həyata keçirilib.

"Narkomaniya ağ ölümdür", "Sağlam bədəndə sağlam ruh olar", "Gələcəyimiz olan gənclərimizi narkomaniyadan qoruyaq", "Narkomaniya cəmiyyətin bəlasıdır" və s. mövzularda müxtəlif tərbiyəvi tədbirlər keçirilib.

Sevindirici haldır ki, rayonda musiqi təhsilinin inkişafına, irəliləməsinə də maraq böyükdür. Müəyyən çatışmazlıqların - mədəni-maarif müəssisələrinin əksəriyyətinin əsaslı təmirə ehtiyacı olması, musiqi alətlərinin çatışmazlığı, müəyyən avadanlıqların olmaması və kitabxana fondlarının komplektləşdirilməsi və yeni nəşrlərin alınmasında çətinliklərin olması, ixtisaslı kadrlara ehtiyacın tam ödənilməməsinə baxmayaraq bu gün Dəvəçidə mədəni-kütləvi tədbirlər vaxtlı-vaxtında həyata keçirilir.

Rayonda 2 xalq kollektivi fəaliyyət göstərir - Dəvəçi rayon Mədəniyyət evində "Çıraqqala" zurnaçılar və Dağbilici kənd Mədəniyyət evində "Xınayaxdı" folklor xalq kollektivləri. Keçən il "Azərbaycan - doğma diyar" devizi altında II Respublika Azsaylı Xalqların İncəsənəti festivalı keçirilmiş, "Xınayaxdı" folklor xalq kollektivi festivalda uğurla çıxış etmişdir.

Rayonda 2 qoruq - "Çıraqqala" tarix memarlıq və "Şabron şəhəri" tarix mədəniyyət qoruqları fəaliyyət göstərir. Rayonda 20 arxeoloji abidə mühafizə olunur. 120-dən çox tarixi abidə isə qeydə alınmışdır. "Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası qanununa uyğun olaraq tarixi abidələrin qorunması, inventarlaşdırılması, fotoşəkillərinin çəkilməsi, qoruq lövhələrinin vurulması işləri görülmüş və bu istiqamətdə işlər Dəvəçi rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 334750 nüsxə kitab fondu vardır. 2008-ci il ərzində 7010 yeni kitab alınıb. Mərkəzləşdirilmiş Kitabxananın 17600 nəfər oxucusu olub ki, bu da rayonda elmə, təhsilə, bədii ədəbiyyata olan maraqdan xəbər verir.

Rayonda fəaliyyət göstərən Tarix-Diyarşünaslıq muzeyində 3573, Q.Musabəyov adına ev-muzeyində isə 2341 ədəd eksponat var.

***Dəvəçi rayonu həmişə tarixi eksponatların qorunması, Respublika səviyyəli müxtəlif el tədbirlərinin təşkilində qabaqcıl yerlərdən birini tutub. İnanırıq ki, rayon əhalisi bundan sonra da mədəni-kütləvi tədbirlərin vaxtaşırı həyata keçirilməsinə öz töhfəsini verəcək.***

**● E.HƏSƏNQIZI**